AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# CONSEQUENCES OF THE ISRAEL-IRAN ARMED CONFRONTATION AND REGIONAL IMPACTS IN THE POST-CONFLICT STAGE: IN THE CONTEXT OF AZERBAIJAN'S SECURITY

**Zumrud Osmanli**[1]

**UDC:** 327.5(55:569.4):327.8(479.24):355.45;338.27:620.9
**LBC:** 66.4(5Ir+5Isr):66.4(5Az):68.4:31.19
**HoS:** 82
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.80-93

**Keywords:**

Israel-Iran conflict,
National security,
Regional stability,
Energy security,
Geopolitical risks

## ABSTRACT

This article comprehensively analyzes the possible impacts of the armed confrontation that has occurred or may occur between Israel and Iran on regional geopolitical stability, as well as the risks and opportunities directed at Azerbaijan's national security interests in this context. The relevance of the topic is justified by the fact that the deepening military-political confrontations in the Middle East are no longer limited to this region, but also affect strategic balances in the South Caucasus and the broader Eurasian space. The purpose of the study is to scientifically analyze the security challenges posed by the Israel-Iran confrontation for Azerbaijan and the resilience opportunities against these threats within the framework of the country's existing foreign policy strategy. By using analytical-descriptive and comparative approaches, the research conducts a scientific analysis of possible scenarios based on Azerbaijan's geostrategic position, its long-term border relations with Iran, its diplomatic relations with both sides, and its role in energy and transport corridors. The scientific novelty lies in the fact that the confrontation is presented through a comprehensive assessment of specific threat formats for Azerbaijan – in the context of border security, cyber and hybrid threats, economic and energy stability, and regional diplomatic maneuvering opportunities. The result of the study shows that although the escalation of the confrontation creates a number of security risks for Azerbaijan, the country's balanced foreign policy, strategic alliance with Turkey, and increasing activity in international cooperation platforms enhance its ability to provide flexible and purposeful responses to these risks.

[1] Military Scientific-Research Institute of the National Defense University; Baku, Azerbaijan
E-mail: zumrud_osmanli@mail.ru
https://orcid.org/0009-0003-5710-6308

**To cite this article:** Osmanli, Z. [2025]. Consequences of the Israel-Iran Armed Confrontation and Regional Impacts in the Post-Conflict Stage: In the Context of Azerbaijan's Security. *History of Science journal*, *6*(3), pp.80-93.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.80-93

***Article history:***
*Received: 21.06.2025*
*Accepted: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# İSRAİL-İRAN SİLAHLI QARŞIDURMASININ NƏTİCƏLƏRİ VƏ POST-MÜNAQİŞƏ MƏRHƏLƏSİNDƏ REGİONAL TƏSİRLƏR: AZƏRBAYCANIN TƏHLÜKƏSİZLİK KONTEKTİNDƏ

**Zümrüd Osmanlı**[1]

**UOT:** 327.5(55:569.4):327.8(479.24):355.45;338.27:620.9
**KBT:** 66.4(5İr+5İsr):66.4(5Az):68.4:31.19
**HoS:** 82
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.80-93

**Açar sözlər:**

İsrail-İran qarşıdurması,
Milli təhlükəsizlik,
Regional sabitlik,
Enerji təhlükəsizliyi,
Geosiyasi risklər

## ANNOTASİYA

Bu məqalə İsrail-İran arasında baş vermiş və ya baş verə biləcək silahlı qarşıdurmanın regional geosiyasi sabitliyə mümkün təsirlərini və bu kontekstdə Azərbaycanın milli təhlükəsizlik maraqlarına yönələn risk və imkanları kompleks şəkildə təhlil edir. Mövzunun aktuallığı Yaxın Şərqdə dərinləşən hərbi-siyasi qarşıdurmaların artıq yalnız bu regionla məhdudlaşmaması, Cənubi Qafqaz və daha geniş Avrasiya məkanında da strateji balanslara təsir göstərməsi ilə əsaslandırılır. Tədqiqatın məqsədi İsrail-İran qarşıdurmasının Azərbaycan üçün yaratdığı təhlükəsizlik çağırışlarını və ölkənin mövcud xarici siyasət strategiyası çərçivəsində bu təhdidlərə qarşı dayanıqlılıq imkanlarını elmi baxımdan analiz etməkdir. Tədqiqatda analitik-deskriptiv və müqayisəli yanaşmalardan istifadə olunmaqla Azərbaycanın geostrateji mövqeyi, İranla uzunmüddətli sərhədyanı münasibətləri, hər iki tərəflə diplomatik əlaqələri və enerji-nəqliyyat dəhlizlərində oynadığı rolu əsasında baş verə biləcək ssenarilərə dair elmi təhlil aparılmışdır. Elmi yenilik ondan ibarətdir ki, bu qarşıdurmanın Azərbaycan üçün spesifik təhlükə formatları - sərhəd təhlükəsizliyi, kiber və hibrid təhdidlər, iqtisadi və energetik sabitlik, regional diplomatik manevr imkanları kontekstində kompleks qiymətləndirməsi təqdim edilir. Tədqiqatın nəticəsi göstərir ki, qarşıdurmanın eskalasiyası Azərbaycana bir sıra təhlükəsizlik riskləri yaratsa da ölkənin balanslaşdırılmış xarici siyasəti, Türkiyə ilə strateji müttəfiqliyi və beynəlxalq əməkdaşlıq platformalarında artan fəallığı bu risklərə qarşı çevik və məqsədyönlü cavab imkanlarını artırır.

[1] Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu; Bakı, Azərbaycan
E-mail: zumrud_osmanli@mail.ru
https://orcid.org/0009-0003-5710-6308

**Məqaləyə istinad:** Osmanlı, Z. [2025]. İsrail–İran Silahlı Qarşıdurmasının Nəticələri və Post-Münaqişə Mərhələsində Regional Təsirlər: Azərbaycanın Təhlükəsizlik Kontektində. *History of Science jurnalı*, *6*(3), səh.80-93.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.80-93

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 21.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 23.07.2025*
*Çapa qəbul edilmişdir: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ПОСЛЕДСТВИЯ ВООРУЖЁННОГО ПРОТИВОСТОЯНИЯ ИЗРАИЛЯ И ИРАНА И РЕГИОНАЛЬНЫЕ ВОЗДЕЙСТВИЯ НА ПОСТКОНФЛИКТНОМ ЭТАПЕ: В КОНТЕКСТЕ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

**Зумруд Османлы**[1]

**УДК:** 327.5(55:569.4):327.8(479.24):355.45;338.27:620.9
**ББК:** 66.4(5Ирн+5Изр):66.4(5Азе):68.4:31.19
**HoS:** 82
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.80-93

**Ключевые слова:**

Израильско-иранский конфликт, Национальная безопасность, Региональная стабильность, Энергетическая безопасность, Геополитические риски

## АННОТАЦИЯ

В данной статье проводится комплексный анализ возможных последствий вооружённого противостояния, произошедшего или потенциально возможного между Израилем и Ираном, для региональной геополитической стабильности, а также рисков и возможностей, направленных на национальные интересы безопасности Азербайджана в этом контексте. Актуальность темы обосновывается тем, что углубляющиеся военно-политические противостояния на Ближнем Востоке уже не ограничиваются лишь данным регионом, но также оказывают влияние на стратегические балансы на Южном Кавказе и в более широком евразийском пространстве. Цель исследования заключается в научном анализе вызовов безопасности, которые создаёт противостояние Израиля и Ирана для Азербайджана, а также возможностей устойчивости против этих угроз в рамках существующей внешнеполитической стратегии страны. С применением аналитико-дескриптивного и сравнительного подходов проведён научный анализ возможных сценариев на основе геостратегического положения Азербайджана, его долгосрочных приграничных отношений с Ираном, дипломатических связей с обеими сторонами, а также роли в энергетических и транспортных коридорах. Научная новизна заключается в том, что данное противостояние представлено через комплексную оценку специфических форматов угроз для Азербайджана - в контексте безопасности границ, кибер- и гибридных угроз, экономической и энергетической стабильности, а также возможностей регионального дипломатического маневрирования. Результаты исследования показывают, что хотя эскалация противостояния создаёт для Азербайджана ряд рисков в сфере безопасности, сбалансированная внешняя политика страны, стратегический союз с Турцией и возрастающая активность на платформах международного сотрудничества увеличивают её возможности для гибкого и целенаправленного реагирования на эти риски.

---

[1] Военный научно-исследовательский институт Национального университета обороны; Баку, Азербайджан
E-mail: zumrud_osmanli@mail.ru
https://orcid.org/0009-0003-5710-6308
**Цитировать статью:** Османлы, З. [2025]. Последствия вооружённого противостояния Израиля и Ирана и региональные воздействия на постконфликтном этапе: в контексте безопасности Азербайджана. *Журнал History of Science*, *6*(3), с.80-93.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.80-93

***История статьи:***
*Статья поступила в редакцию: 21.06.2025*
*Отправлена на доработку: 23.07.2025*
*Принята для печати: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

XXI əsrin ilk rübündə beynəlxalq münasibətlər sistemində qeyri-sabitliyin artması, regional güclər arasında geosiyasi rəqabətin dərinləşməsi və silahlı münaqişələrin intensivləşməsi qlobal təhlükəsizlik arxitekturasında ciddi sarsıntılara səbəb olmuşdur. Bu kontekstdə İsrail-İran münasibətləri müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik arxitekturasını fundamental şəkildə dəyişdirən, silahlı qarşıdurma potensialı daşıyan ən mürəkkəb və riskli geosiyasi toqquşmalardan biri kimi çıxış edir. Hər iki dövlətin ideoloji, hərbi və diplomatik səviyyədə bir-birini fundamental təhlükə kimi görməsi, xüsusilə də İranın nüvə proqramı və İsrailin ona qarşı preventiv (önləyici) strategiyası təkcə Yaxın Şərqdə deyil, bütünlükdə Avrasiya regionunda sabitliyə ciddi təhdid yaradır. 2020-ci illərin ortalarından etibarən İranın nüvə silahına yaxınlaşması, İsrailin isə artan şəkildə kəşfiyyat-sabotaj əməliyyatları və regional koalisiyalar qurması fonunda münaqişə riski daha da reallaşmış və genişmiqyaslı silahlı qarşıdurmanın konturları formalaşmağa başlamışdır.

Bu geosiyasi dinamika birbaşa olaraq Azərbaycan Respublikasının milli təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan İsrail və İran kimi iki zidd aktor arasında coğrafi baxımdan yerləşməsi, hər iki dövlətlə diplomatik münasibət saxlaması, həmçinin İranla 765 km-lik sərhədə malik olması səbəbindən bu qarşıdurmanın nəticələrinə qarşı xüsusi həssaslıq nümayiş etdirməyə məcburdur. İran daxilində yaşayan 30 milyona yaxın azərbaycanlı etnosunun siyasi-ideoloji faktora çevrilməsi, İsrailin Azərbaycanda hərbi-texniki əməkdaşlıq çərçivəsində möhkəmlənməsi və eyni zamanda İranın Ermənistanla yaxın münasibətləri Azərbaycan üçün təhlükəsizlik və diplomatiya dilemmasını *aktuallaşdırır*. Bu baxımdan İsrail-İran qarşıdurması Azərbaycanın yalnız sərhəd təhlükəsizliyinə deyil, eyni zamanda regional balanslı xarici siyasətinə, iqtisadi layihələrinə və enerji-nəqliyyat dəhlizlərinin sabitliyinə birbaşa təsir edə biləcək xarakter daşıyır. Bu tədqiqatın *məqsədi* İsrail və İran arasında potensial və ya faktiki hərbi qarşıdurmanın nəticələrinin geosiyasi və təhlükəsizlik aspektlərini *Azərbaycan perspektivindən* elmi təhlil etməkdir. Bu kontekstdə qarşıdurmanın mümkün gedişatı ilə yanaşı, eyni zamanda onun *Cənubi Qafqazda post-münaqişə mərhələsində doğura biləcəyi regional təsirlər* nəzərdən keçiriləcək. Tədqiqatda Azərbaycanın milli təhlükəsizlik strategiyası, diplomatik manevr imkanları, regional güclərlə əməkdaşlığı və strateji infrastruktur layihələrinin davamlılığı kimi məsələlər analiz olunacaq.

Metodoloji baxımdan tədqiqatda *analitik-deskriptiv* metod əsas götürülməklə yanaşı, müqayisəli təhlil və geosiyasi proqnozlaşdırma yanaşmaları da tətbiq edilir. Elmi ədəbiyyat, rəsmi sənədlər, ekspert təhlilləri və beynəlxalq təşkilatların hesabatları əsasında qarşıdurmanın təhlükəsizlik dinamikası araşdırılmışdır. Məqalənin məqsədi İsrail-İran münasibətlərindəki dəyişikliklərin yalnız normativ təhlilini deyil, realist və praqmatik çərçivədə Azərbaycanın milli maraqlarına potensial təsirini ortaya qoymaqdır. Bu baxımdan məqalə təkcə siyasi və hərbi qarşıdurmanın analizi ilə kifayətlənmir, eyni zamanda post-münaqişə dövründə Azərbaycanın diplomatik strategiyalarını və regional sabitlikdə oynaya biləcəyi rolun konturlarını müəyyən etməyi hədəfləyir.

## 2.Geosiyasi kontekstdə İsrail-İran qarşıdurması

*İsrail-İran silahlı qarşıdurmasının yaranma səbəbləri və tarixi:* İsrail və İran arasındakı münasibətlər XX əsrin ortalarından bəri bir sıra mərhələlərdən keçmiş, geosiyasi və ideoloji dəyişikliklərin təsiri ilə zaman-zaman radikal şəkildə fərqlənmişdir. 1948-ci ildə İsrail dövlətinin yaradılmasından sonra İran, o dövrün digər müsəlman ölkələri ilə müqayisədə daha praqmatik mövqe sərgiləmiş və İsraili de-fakto tanıyan ilk müsəlman ölkələrdən biri olmuşdur [1; 2]. Şah Məhəmməd Rza Pəhləvi dövründə İsrail və İran arasında iqtisadi, hərbi və kəşfiyyat sahəsində əməkdaşlıq həyata keçirilmiş, xüsusilə 1960-70-ci illərdə bu münasibətlər zirvə nöqtəsinə çatmışdır. Tərəflər arasında "Periferik Doktrina" çərçivəsində

yaxın əməkdaşlıq mövcud olmuşdur; bu doktrina İsrailin ərəb ölkələri tərəfindən təcrid edilməsinə qarşı qeyri-ərəb qonşularla ittifaq qurmasını nəzərdə tuturdu və İran bu siyasətin əsas dayaqlarından biri hesab olunurdu [1; 3].

Lakin 1979-cu ildə İranda baş vermiş İslam İnqilabı regionun geosiyasi mənzərəsini köklü şəkildə dəyişdirmiş və İsrail-İran münasibətlərində dərin ideoloji uçurum yaratmışdır. İnqilabdan sonra hakimiyyətə gələn Ayətullah Ruhullah Xomeyni rəhbərliyindəki teokratik rejim İsraili qeyri-legitim "Sionist rejim" kimi tanımamış, onu regionun əsas düşməni elan etmişdir. İranın "məzlum Fələstin xalqının müdafiəsi" və "sionistlərin regiondan çıxarılması" kimi siyasi-ideoloji şüarları, qarşıdurmanın əsas dayağına çevrilmişdir. Bu ideoloji mövqe yalnız siyasi bəyanatlarla deyil, həm də HƏMAS, Hizbullah və İslami Cihad kimi İsrailə qarşı çıxan silahlı qruplaşmalara maliyyə, hərbi və logistik dəstək verilməsi ilə praktikaya keçmişdir [1; 4]. Nəticə etibarilə, iki ölkə arasında dolayısı ilə davam edən münaqişə 1990-cı illərdən etibarən Yaxın Şərqdə proksi müharibələr və kəşfiyyat qarşıdurmaları ilə xarakterizə olunmağa başlamışdır.

İsrail-İran qarşıdurmasının yaranmasında və davam etməsində üç əsas amil kompleks şəkildə iştirak edir: geosiyasi, ideoloji və hərbi faktorlar.

Geosiyasi baxımdan hər iki dövlət regional güc statusu uğrunda rəqabət aparır. İran özünü İslam dünyasının ideoloji və strateji lideri kimi təqdim edərək Fars körfəzində və Levant bölgəsində nüfuzunu artırmağa çalışır. İsrail isə bu genişlənməni öz milli təhlükəsizliyinə təhdid kimi qəbul edir. İranın Suriya, Livan və İraqda nüfuzunun artması, İsrailin sərhədlərinə yaxın ərazilərdə İran hərbi mövcudluğunun güclənməsi, Tel-Əvivin İranı birbaşa strateji təhlükə kimi dəyərləndirməsinə səbəb olmuşdur. İranın Yəməndə də Husi üsyançılarına dəstək verməsi onun regional ekspansiyası barədə İsrail və Qərb müttəfiqlərinin narahatlığını artırmışdır [1; 5].

İdeoloji müstəvidə qarşıdurma şiə-islam fundamentalizminin və yəhudi dövlətçiliyinin bir-birinə zidd mövqelərinə əsaslanır. İran İslam Respublikasının ideoloji doktrinası- "sionist rejimin məhv edilməsi"- konstitusional səviyyədə legitimləşdirilmiş siyasi xəttdir. İsrailin isə yəhudi kimliyinə əsaslanan dövlət modeli və Qüdsün "bölünməz paytaxt" elan olunması İran üçün həm dini, həm də siyasi nöqteyi-nəzərdən qəbuledilməzdir [1; 6].

Hərbi amil isə bu qarşıdurmanın konkret təzahür formasına çevrilmişdir. İsrail İranın nüvə proqramını öz varlığına qarşı mövcudluq təhdidi kimi qəbul edir. Tehranın nüvə imkanlarının hərbi məqsədlərlə istifadə edilə biləcəyi ehtimalı İsraildə kəskin narahatlıq doğurmuş və bu səbəblə İranın nüvə obyektlərinə qarşı kiber hücumlar (məsələn, "Stuxnet" virusu), elmi işçilərə qarşı sui-qəsdlər və hərbi hava zərbələri həyata keçirilmişdir [7; 8; 9]. İran isə öz növbəsində ballistik raket proqramını genişləndirərək İsraili vura biləcək məsafəyə malik silah sistemləri hazırlamış, bu da qarşıdurmanı daha da dərinləşdirmişdir. Əlavə olaraq İranın Qəzza və Livandakı müttəfiqləri vasitəsilə İsrail ərazisinə yönəlmiş raket hücumları da münaqişənin hərbiləşməsini gücləndirən əsas amillərdəndir [10; 11].

*Beynəlxalq hüquq və diplomatik reaksiyalar:* İsrail-İran qarşıdurmasının beynəlxalq hüquq baxımından qiymətləndirilməsi mürəkkəbdir. Hər iki ölkə arasında rəsmi diplomatik münasibətlər mövcud olmadığından qarşılıqlı hərbi və siyasi addımlar çox vaxt beynəlxalq hüququn "boşluq zonaları"nda baş verir [12; 13]. İranın qeyri-dövlət aktorları vasitəsilə İsrailə qarşı apardığı fəaliyyətlər, xüsusilə BMT Təhlükəsizlik Şurası tərəfindən dəfələrlə qeyri-legitim elan olunmuşdur [14]. Bununla yanaşı, İsrailin də İrana qarşı həyata keçirdiyi hədəfli sui-qəsdlər və kiber hücumlar beynəlxalq hüquq normaları, xüsusilə də suverenlik prinsipinə zidd olaraq qiymətləndirilmişdir. Ancaq bu addımların hüquqi qiymətləndirilməsi çox zaman siyasi kontekstdən asılı olaraq dəyişir [15].

Diplomatik baxımdan bu qarşıdurma həm regional, həm də qlobal diplomatiyanın əsas müzakirə mövzularından biri olmuşdur. ABŞ, Avropa İttifaqı və bəzi ərəb ölkələri İranın nüvə proqramını məhdudlaşdırmaq məqsədilə 2015-ci ildə "Birgə Hərtərəfli Fəaliyyət

Planı" (JCPOA) çərçivəsində Tehranla razılıq əldə etmiş, lakin 2018-ci ildə ABŞ-ın bu razılaşmadan birtərəfli çıxması vəziyyəti daha da gərginləşdirmişdir. İsrail razılaşmaya ilkin mərhələdən etibarən etiraz etmiş, regionda İranın nüfuzunun və gücünün artırılmasına şərait yaradacağı barədə narahatlığını ifadə etmişdir. İranın uran zənginləşdirmə səviyyəsinin artırması və beynəlxalq monitorinqə məhdudiyyət qoyması baş vermiş hərbi eskalasiyanı sürətləndirərək regional və qlobal təhlükəsizliyə ciddi təhdid yaratmışdır [16; 17]. Digər tərəfdən BMT və ATƏT kimi beynəlxalq təşkilatlar münaqişənin diplomatik yollarla həllinə çağırsa da hər iki tərəfin kompromisə yanaşmaması bu çağırışları faktiki olaraq nəticəsiz buraxır [18].

*Silahlı qarşıdurmanın nəticələri:* İran və İsrail arasında baş vermiş 12 günlük silahlı qarşıdurma regionda qeydə alınmış ən qısa, lakin intensiv münaqişələrdən biri olmaqla hərbi qüvvələrin döyüş qabiliyyəti ilə yanaşı, eyni zamanda mülki əhalinin təhlükəsizliyinə ciddi təsir göstərmişdir. Qarşıdurma zamanı tətbiq edilən yüksək texnologiyalı silah sistemləri, dron və raket hücumlarının miqyası, həmçinin qeyri-dövlət aktorlarının iştirakı, insan və hərbi resurslar sahəsində itkilərin genişlənməsinə səbəb olmuşdur [19; 20]. Bu kontekstdə hər iki tərəf üçün itkilərin təhlili operativ-strateji mülahizələrlə yanaşı, eyni zamanda beynəlxalq humanitar hüquq baxımından xüsusi əhəmiyyət kəsb edir. Qarşıdurma dövründə həyata keçirilmiş hücumlar əsasən uzaqmənzilli ballistik raketlər, dronlar, artilleriya və yüksək dəqiqlikli hava zərbələri vasitəsilə icra edilmişdir. İsrailin çoxqatlı müdafiə sisteminə daxil olan "Iron Dome" və "David's Sling" kompleksləri yüksək effektivlik nümayiş etdirmiş, İran tərəfinin isə SEPAH Qüvvələri vasitəsilə strateji hədəflərə yönəlmiş hücumları regiondakı hərbi balansın dəyişkən xarakterini önə çıxarmışdır [21; 22]. Münaqişə çərçivəsində həyata keçirilən hərbi əməliyyatlar nəticəsində hər iki ölkənin mülki əhalisi arasında ciddi itkilər baş vermiş, yaşayış infrastrukturu geniş şəkildə zərər görmüş, əhalinin təxliyyəsi və humanitar yardımın təşkili məsələləri ön plana çıxmışdır. Müdafiə sistemlərinin bir qismi zərərsizləşdirilməsinə baxmayaraq bir sıra raketlər hədəflərinə çataraq maddi və mənəvi itkılərə səbəb olmuşdur. İran ərazisində İsrailin dəqiq zərbələri nəticəsində ən azı 224 nəfər (uşaqlar və qadınlar daxil olmaqla) həlak olmuş, təxminən 1 800-ə yaxın yaralı qeydə alınmış, xüsusilə Tehran, İsfahan və Kərmanşah bölgələrində yaşayış məntəqələri, səhiyyə obyektləri və energetik infrastruktur ağır zərbə almışdır. Səhiyyə xidmətlərinə çıxışın məhdudlaşması və humanitar yardımın gecikməsi əlavə böhran yaradaraq ciddi psixoloji travmalara yol açmışdır [23]. Bu amillər yalnız dövlət səviyyəsində deyil, həm də beynəlxalq humanitar təşkilatların fəaliyyətində prioritet istiqamətə çevrilmişdir. UNICEF və Beynəlxalq Qırmızı Xaç Komitəsi (ICRC) münaqişə bölgələrinə tibbi yardım, humanitar intervensiya və psixososial dəstək proqramları təşkil etmişdir [24; 25].

Qarşıdurma nəticəsində İran ərazisində neft emalı zavodları, elektrik stansiyaları və sənaye obyektlərinə endirilən dəqiq zərbələr enerji infrastrukturunu ciddi şəkildə sıradan çıxarmış, daxili istehsal və ixrac potensialını zəiflətmişdir. İsrailin mülki enerji və logistika obyektlərinə yönəlmiş hücumlar isə əsasən Aşkelon və Tel-Əvivdə elektrik və su təchizatında qısamüddətli kəsintilərə səbəb olmuşdur. Hər iki tərəfdə nəqliyyat və rabitə sistemlərində fasilələr qeydə alınmışdır [19; 20].

Regional bazarlarda enerji qiymətlərinin kəskin artması və ticarət risklərinin yüksəlməsi ilə yanaşı, həm İranın, həm də İsrailin milli valyutaları ciddi təzyiqlə üzləşmişdir. İran iqtisadiyyatında mövcud sanksiyalar fonunda neft ixracı 94 % azalmış, rial ciddi devalvasiya keçirmiş və inflasiya 37 % səviyyəsinə yüksəlmişdir. İsraildə isə turizm sektoru çökmək üzrədir, yüksək texnologiyalı istehsal üzrə yatırımlar risk altındadır və müdafiə xərcləri dövlət büdcəsinin prioritet sahəsinə çevrilmişdir [26].

Münaqişə Cənubi Qafqaz və Orta Şərq regionlarında strateji nəqliyyat və enerji dəhlizlərinə təsirsiz ötüşməmişdir: İran üzərindən keçən "Şimal-Cənub" və planlaşdırılan

Zəngəzur dəhlizində təhlükəsizlik riskləri artmış, alternativ marşrutlara olan maraq yüksəlmişdir. Eyni zamanda, İsrailin Aralıq dənizi limanları vasitəsilə həyata keçirilən ixrac axınlarında gecikmələr qeydə alınmışdır [27].

Tədqiqat nəticələri göstərir ki, müharibə İran və İsrail iqtisadiyyatlarında qısamüddətli tənəzzülə, strateji infrastrukturun zədələnməsinə və regionda ticarət marşrutlarının dəyişkənliyinə səbəb olmuşdur. Bu qarşıdurma hərbi əməliyyatların iqtisadi və texnoloji əsaslı infrastrukturlara yönəlməsinin yeni mərhələyə keçdiyini təsdiq edir.

**3.İsrail-İran qarşıdurmasının qlobal güclərin rəqabətinə və Yaxın Şərqdə güc balansına təsiri**

İsrail dövləti üçün İranın nüvə silahına malik olması milli təhlükəsizliyin fundamental təhdidi kimi qiymətləndirilir Bu kontekstdə İsrailin milli təhlükəsizlik və hərbi-strateji doktrinası "önləyici müdaxilə" (preventive action) prinsipinə əsaslanır. İranın nüvə obyektlərinə qarşı həyata keçirilmiş kiber hücumlar, nüvə alimlərinə qarşı təşkil olunmuş hədəfli sui-qəsdlər və kəşfiyyat-sabotaj əməliyyatları İsrailin bu yanaşmasının təzahür formalarıdır [28].

Eyni zamanda İsrail Yaxın Şərqdə regional balansı öz maraqları istiqamətində formalaşdırmaq üçün diplomatik aktivliyini gücləndirir. Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Sudan və Qətər kimi ərəb ölkələri ilə münasibətlərin normallaşdırılması, qarşılıqlı əməkdaşlıq sazişlərinin imzalanması, İranın regional nüfuzunu məhdudlaşdırmaq məqsədi daşıyan strateji koalisiyanın yaradılmasına yönəlmişdir [29].

İsrail-İran qarşıdurması təkcə bu iki dövlət arasında regional çərçivədə cərəyan edən münaqişə olmaqdan kənara çıxaraq qlobal geosiyasi maraqların toqquşduğu daha geniş bir rəqabət platformasına çevrilmişdir. ABŞ, Böyük Britaniya və Avropa İttifaqı kimi qərb aktorları İsrailin milli təhlükəsizlik narahatlıqlarını legitim hesab edərək İranın nüvə və raket proqramına qarşı iqtisadi sanksiyalar və siyasi təzyiq vasitələrindən istifadə edirlər [30]. Eyni zamanda Rusiya və Çin kimi qeyri-qərb aktorları isə İranla enerji, hərbi və texnoloji əməkdaşlığı genişləndirməklə bu ölkənin regional nüfuzunu gücləndirməyə çalışır [31]. Bu amil qarşıdurmanın qütbləşmiş çoxqütblü sistemdə daha da mürəkkəbləşməsinə səbəb olur.

Rusiya-Ukrayna müharibəsinin davam etdiyi geosiyasi kontekstdə Yaxın Şərqdə yeni bir hərbi qarşıdurmanın alovlanması enerji bazarlarında dərin qeyri-sabitliyə səbəb olmaqla yanaşı, eyni zamanda Cənubi Qafqaz da daxil olmaqla daha geniş coğrafiyada təhlükəsizlik arxitekturasını zəiflədə bilər. Bu baxımdan İsrail-İran qarşıdurması yalnız Yaxın Şərqin deyil, eyni zamanda Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz bölgələrinin də strateji sabitliyinə ciddi təhdid yaradır. Münaqişənin dərinləşməsi regional güc balansının yenidən formalaşmasına, aktorların mövqelərində dəyişikliklərə və ümumilikdə qlobal təhlükəsizlik dinamikasında mühüm transformasiyalara səbəb ola bilər [31]. Eyni zamanda, qarşıdurma regionda hərbi eskalasiyanın artmasına, diplomatik qütbləşmənin dərinləşməsinə və kompleks təhlükəsizlik təhdidlərinin formalaşması ilə müşayiət olunur.

**4.Regional ittifaqlar və enerji təhlükəsizliyi kontekstində İsrail-İran qarşıdurması**

Son illərdə Yaxın Şərqdə baş verən diplomatik dəyişikliklər, xüsusilə 2020-ci ildə imzalanan "Abraham Razılaşmaları" çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn və Mərakeşin İsraillə münasibətləri normallaşdırması regionda anti-İran yönümlü yeni siyasi konfiqurasiyanın formalaşmasına səbəb olmuşdur [31]. Bu razılaşmaların strateji nəticələrindən biri də İranın regional nüfuzunun məhdudlaşdırılması məqsədilə koordinasiya olunmuş əməkdaşlıq modellərinin inkişaf etdirilməsidir. Səudiyyə Ərəbistanı hələlik bu prosesə ehtiyatlı yanaşsa da İranın nüvə ambisiyaları və regional təsir strategiyaları bu ölkəni də potensial təhlükəsizlik əməkdaşlığına yönəldə bilər. Beləliklə, İsrail-İran qarşıdurması dövlətlərarası münaqişə olmaqla yanaşı, eyni zamanda regiondakı

konfessional gərginliklərin- xüsusilə sünni-şiə münaqişə dinamikasının- dərinləşməsi ilə müşayiət olunan çoxşaxəli geosiyasi qarşıdurma kimi meydana çıxır [29].

Digər tərəfdən bu qarşıdurmanın enerji təhlükəsizliyi baxımından yaratdığı təsirlər də diqqətəlayiqdir. İranın Fars körfəzində yerləşən və dünya neftinin təxminən 20%-nin daşındığı strateji Hörmüz boğazı üzərindəki nəzarəti qlobal enerji bazarlarında mühüm risk mənbəyidir [32]. İranın mümkün hərbi eskalasiya halında boğazı bağlamaq və ya təhlükəyə salmaq potensialı beynəlxalq enerji tədarükündə fasilələrə, qiymət volatilliyinə və geoiqtisadi qeyri-sabitliyə səbəb ola bilər.

Eyni zamanda İsrailin Aralıq dənizindəki təbii qaz yataqları və buna bağlı enerji layihələri, Körfəz ölkələrinin enerji ixracı və əsas boru kəmərləri də daxil olmaqla Yaxın Şərq və Avrasiya enerji infrastrukturu bu qarşıdurmadan dolayı təhdid altına düşə bilər [27]. Bu kontekstdə Azərbaycan kimi həm enerji ixracatçısı, həm də tranzit ölkə funksiyasını yerinə yetirən aktorların geosiyasi əhəmiyyəti artmaqdadır. Bununla belə, regional eskalasiya ssenariləri fonunda bu tip ölkələrin də təhlükəsizlik baxımından həssas zonalar kimi qiymətləndirilməsi mümkündür.

Nəticə etibarilə, İsrail-İran qarşıdurması yalnız hərbi-siyasi müstəvidə deyil, eyni zamanda enerji təhlükəsizliyi, regional koalisiyaların formalaşması və geoiqtisadi sabitlik baxımından da çoxşaxəli təsir potensialına malikdir. Bu isə beynəlxalq aktorlar üçün strateji qiymətləndirmələrin və qabaqlayıcı tədbirlərin aktuallığını artırır.

## 5.Azərbaycanın təhlükəsizlik strategiyası və diplomatik mövqeyi

İsrail-İran qarşıdurmasının post-münaqişə mərhələsində yaranacaq regional təhlükəsizlik çağırışlarını nəzərə alaraq Azərbaycan milli təhlükəsizlik strategiyasını sabitliyin qorunması və regional manevr imkanlarının genişləndirilməsi istiqamətində formalaşdırmaqdadır. Bu strategiya dörd əsas istiqamət üzrə qurulmuşdur:

1. *Balanslaşdırılmış xarici siyasət və neytrallıq yanaşması:* Azərbaycanın xarici siyasətinin mərkəzində müstəqillik və balans prinsipləri dayanır. Rusiya, İran, Türkiyə və Qərb ölkələri ilə paralel və tarazlaşdırılmış münasibətlər qurmaqla Azərbaycan regiondakı qarşıdurmalardan uzaq dayanmağa çalışır. Bu neytral mövqe ona diplomatik təzyiqlərdən yayınmaqla yanaşı, bəzi hallarda vasitəçilik təşəbbüsləri irəli sürmək imkanları da verir.
2. *Strateji hərbi əməkdaşliqlarin gücləndirilməsi:* Azərbaycan üçün təhlükəsizlik strategiyasının əsas sütunlarından biri Türkiyə ilə hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsidir. Pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə sistemləri və birgə hərbi təlimlər bu sahədəki əsas istiqamətlərdir. Bundan əlavə, NATO və Qərb ölkələri ilə aparılan hərbi tərəfdaşlıq proqramları Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemindəki mövqeyini gücləndirir [33]. Bu əməkdaşlıqlar mümkün İsrail-İran qarşıdurması fonunda Azərbaycanın müdafiə imkanlarını artırır.
3. *Beynəlxalq Təşkilatlarda Aktiv Diplomatik Mövqe:* Azərbaycan Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər platformalarda fəal iştirak etməklə regional sabitlik və multilateral diplomatiyanı təşviq edir. Bu kontekstdə münaqişələrin sülh yolu ilə həlli, beynəlxalq hüququn aliliyi və enerji-nəqliyyat dəhlizlərinin təhlükəsizliyi əsas prioritetlərdir. Diplomatik fəaliyyət, həmçinin Azərbaycanın beynəlxalq imicini gücləndirmək və strateji layihələrini qorumaq məqsədi daşıyır.
4. *Proaktiv təhlükəsizlik tədbirləri və hibrid təhdidlərə qarşı mübarizə:* Müasir dövrdə milli təhlükəsizliyin təminində ənənəvi hərbi strategiyalarla yanaşı, hibrid təhdidlərə qarşı proaktiv və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın milli təhlükəsizlik konsepsiyasında bu yanaşma öz əksini xüsusilə kəşfiyyat fəaliyyətinin gücləndirilməsi, sərhəd nəzarətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin təmin olunması sahələrində tapır

[34]. İsrail-İran qarşıdurmasının yaratdığı qeyri-ənənəvi təhlükələr - o cümlədən kiberhücumlar, informasiya müharibəsi, dini və ideoloji radikallaşma cəhdləri - Azərbaycanın təhlükəsizlik qurumları tərəfindən yüksək risk profilli faktorlar kimi dəyərləndirilir [35].

Bununla yanaşı, strateji infrastrukturun (enerji, rabitə, nəqliyyat və s.) təhlükəsizliyinin təmin olunması məqsədilə qabaqlayıcı təhlükəsizlik mexanizmləri, kibertəhlükəsizlik protokolları və erkən xəbərdarlıq sistemləri tətbiq edilməkdədir. Sərhədlərin fiziki və texnoloji baxımdan möhkəmləndirilməsi istiqamətində regiondakı müttəfiqlərlə əməkdaşlıq təşəbbüsləri də Azərbaycanın milli təhlükəsizlik strategiyasının mühüm tərkib hissəsidir. Bu kontekstdə hibrid münaqişələrə qarşı çevik müdafiə və adaptiv reaksiya qabiliyyətlərinin artırılması Azərbaycanın təhlükəsizlik arxitekturasında prioritet istiqamət kimi formalaşmışdır.

## 6.Azərbaycanın iqtisadiyyatı, enerji və nəqliyyat dəhlizlərinin geosiyasi sabitliyi

Yaxın Şərqdə baş vermiş İsrail-İran qarşıdurması təkcə regional sabitliyi təhdid etmir, eyni zamanda bu regiona coğrafi və iqtisadi baxımdan yaxın olan Azərbaycan kimi ölkələr üçün də strateji əhəmiyyət daşıyan nəticələr doğura bilər. Hazırkı mərhələdə münaqişənin nisbətən qısamüddətli xarakter daşıması Azərbaycan iqtisadiyyatında fundamental dəyişikliklərə səbəb olmasa da onun uzunmüddətli davam etməsi müxtəlif sahələr üzrə risklərin formalaşmasına səbəb ola bilər.

Dünya neft bazarında qiymətlərin 70-80 ABŞ dolları intervalında dəyişməsi Azərbaycanın enerji sektorundan əldə etdiyi gəlirlərin artmasına səbəb olmuş, bu isə Dövlət Neft Fondunun valyuta ehtiyatlarının və dövlət büdcəsinin gəlir hissəsinin genişlənməsinə şərait yaratmışdır. Nəticə etibarilə, makroiqtisadi sabitliyin qorunması, fiskal dayanıqlığın gücləndirilməsi və iqtisadi stabillik üçün əlverişli imkanlar yaranmışdır [36]. Bununla belə, münaqişənin eskalasiya etməsi və regionda geosiyasi qeyri-sabitliyin artması strateji nəqliyyat xətləri, o cümlədən Orta Dəhliz və Zəngəzur dəhlizi kimi mühüm beynəlxalq ticarət marşrutları üçün ciddi təhlükələr yarada bilər. Bu cür ssenarilərdə Azərbaycanın tranzit ölkə kimi rolu zəifləyə, nəticədə regional iqtisadi inteqrasiya prosesləri mənfi təsirlə üzləşə bilər.

Turizm sektoru da İsrail-İran qarşıdurmasından birbaşa təsirlənən sahələrdən biridir. 2024-cü ildə Azərbaycana İrandan 210 min, İsraildən isə 29 min nəfər turistin səfər etdiyi bildirilmişdir. Münaqişənin alovlanmasından sonra planlaşdırılan aviareyslərin dayandırılması turizm sektorunda qeyri-müəyyənlik yaratmış, bu isə qeyri-neft sektoruna, xüsusilə regionların sosial-iqtisadi inkişafına mənfi təsir göstərmişdir [36; 37]. Belə şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün risklərin proaktiv şəkildə təhlili və çevik iqtisadi-siyasi strategiyaların hazırlanması zərurətə çevrilmişdir.

Azərbaycanın strateji coğrafi mövqeyi və enerji resursları onu Cənubi Qafqazın əsas enerji və nəqliyyat dəhlizlərinin aparıcı aktoruna çevirir. Zəngəzur dəhlizi vasitəsilə Türkiyə və Orta Asiya ölkələri ilə əlaqələrin genişlənməsi Azərbaycanın geoiqtisadi mövqeyini gücləndirir, lakin bu eyni zamanda İranın regional təsir imkanlarının zəifləməsi kimi qiymətləndirilə bilər. Bu baxımdan, İsrail-İran münaqişəsinin dərinləşməsi fonunda İranın dəhlizə təsir göstərmək cəhdləri Azərbaycanın strateji layihələrinə ciddi təhlükə yarada bilər. Orta Dəhliz Azərbaycanın Avropa və Asiya arasında tranzit mərkəzi rolunu gücləndirməklə yanaşı, onun beynəlxalq iqtisadi əlaqələrinin davamlılığı üçün də həyati əhəmiyyət kəsb edir. Eyni zamanda, "Cənub Qaz Dəhlizi" (TANAP və TAP) vasitəsilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Lakin İsrail-İran qarşıdurmasının regional enerji infrastrukturuna təsir riskləri artmaqda davam edir. Bu isə Azərbaycanın beynəlxalq tərəfdaşları üçün həm strateji fürsətlərin, həm də mümkün geosiyasi risklərin artmasına səbəb olur.

Azərbaycan bu risklərin qarşısını almaq məqsədilə regional əməkdaşlıq mexanizmlərini gücləndirir, strateji tərəfdaşlarla koordinasiyanı artırır və təhlükəsizlik texnologiyalarının tətbiqini genişləndirir. Bu fəaliyyət yalnız iqtisadi maraqların qorunmasına deyil, həm də regional sabitliyin təmin olunmasında Azərbaycanın məsuliyyətli və etibarlı aktor kimi rolunu da gücləndirir.

## 7.Nəticə

İsrail-İran qarşıdurması müasir geosiyasi mənzərədə Yaxın Şərqlə yanaşı, eyni zamanda Cənubi Qafqaz və geniş Avrasiya məkanında çoxşaxəli təhlükəsizlik çağırışları yaradan mühüm beynəlxalq böhran kontekstidir. Bu qarşıdurma yalnız iki ölkə arasında münasibətlərə təsir göstərmir, eyni zamanda regional aktorların maraq və güc balanslarını dəyişdirə biləcək dinamikaları əhatə edir. Tədqiqat göstərir ki, Azərbaycanın strateji mövqeyi və balanslaşdırılmış xarici siyasəti İsrail-İran qarşıdurmasından doğan risklərlə yanaşı, bu risklərə adekvat cavab vermək imkanları da yaradır.

Azərbaycanın geostrateji mövqeyi və enerji-nəqliyyat dəhlizlərindəki rolu fonunda bu ölkə münaqişədən irəli gələn geosiyasi təzyiqlərə qarşı daha həssas mövqedə yerləşir. İranın sərhədboyu hərbi-ideoloji fəallığı, Ermənistanla artan strateji yaxınlaşması və yüksələn hibrid-kiber təhlükələr Azərbaycanın təhlükəsizlik sisteminə əlavə risk formalaşdırır. Bununla yanaşı, ölkənin balanslaşdırılmış xarici siyasət kursu, o cümlədən Türkiyə ilə hərbi və texnoloji əməkdaşlıq əlaqələri bu risklərin idarə olunmasında əhəmiyyətli rol oynayır.

Təhlillərdən aydın olur ki, iqtisadi baxımdan münaqişə həm birbaşa (ticarət, turizm, enerji təchizatı riskləri), həm də dolayı (tranzit imkanlarının zəifləməsi, investisiya axınlarına təsir və s.) təsirlər doğurur. Bu vəziyyət Azərbaycanın iqtisadi təhlükəsizlik konsepsiyasında preventiv yanaşmaları, iqtisadiyyatın şaxələndirilməsini, strateji ehtiyatların gücləndirilməsini və diplomatik fəallığın artırılmasını prioritet kimi irəli çəkir. Eyni zamanda, Zəngəzur dəhlizi və Orta Dəhliz kimi nəqliyyat və enerji infrastrukturunun təhlükəsizliyinin təmin olunması Azərbaycanın geoiqtisadi və geosiyasi mövqeyini möhkəmləndirir. Bu dəhlizlərin sabitliyi yalnız Azərbaycanın deyil, bütövlükdə regionun davamlı inkişaf və təhlükəsizlik baxımından açar əhəmiyyəti daşıyır.

Nəticə etibarilə, İsrail-İran qarşıdurmasının Azərbaycan üçün doğurduğu təhlükəsizlik və iqtisadi təhdidlər kompleks yanaşma tələb edir. Bu yanaşma hərbi və texniki qabiliyyətlərlə yanaşı, çevik diplomatik strategiyalar, regional əməkdaşlıq formatlarında fəal iştirak və beynəlxalq təhlükəsizlik sistemləri ilə inteqrasiya mexanizmlərini də əhatə etməlidir. Bu çərçivədə Azərbaycan milli maraqlarını müdafiə etməklə yanaşı, eyni zamanda regional sabitliyə töhfə verən məsuliyyətli aktor kimi çıxış etməlidir.

## 8.REFERENCES

1. Parsi, T. (2007). *Treacherous alliance: The secret dealings of Israel, Iran, and the United States*. New Haven: Yale University Press. (in English)
2. Ram, H. (2009). *Iranophobia: The logic of an Israeli obsession*. Stanford, CA: Stanford University Press. (in English)
3. Chehabi, H. E., & Martin, R. W. (2010). Iranian-Israeli relations in the Pahlavi era: Strategic alliance and its discontents. *The Middle East Journal, 64*(4), 521–543. (in English)
4. Takeyh, R. (2009). *Guardians of the revolution: Iran and the world in the age of the Ayatollahs*. Oxford University Press. (in English)
5. Eisenstadt, M., & Pollack, K. (2017). *Iranian power projection strategy and responses*. Washington, DC: The Washington Institute for Near East Policy. (in English)
6. Litvak, M. (2006). The Islamic Republic of Iran and the Holocaust: Anti-Semitism and anti-Zionism. *Journal of Israeli History, 25*(1), 245–262. (in English)

**7.** Sanger, D. E. (2012). *Confront and conceal: Obama's secret wars and surprising use of American power*. New York. (in English)
**8.** Bergman, R. (2018). *Rise and kill first: The secret history of Israel's targeted assassinations*. New York: Random House. (in English)
**9.** Eisenstadt, M. (2017). *Iran's nuclear program and Israel's options: A net assessment*. Washington, DC: The Washington Institute for Near East Policy. (in English)
**10.** Rubin, U. (2018). *The missile threat from Gaza, Lebanon, and Iran: Strategic implications for Israel*. Ramat Gan: Begin-Sadat Center for Strategic Studies. (in English)
**11.** Levitt, M. (2013). *Hezbollah: The global footprint of Lebanon's party of God*. Washington, DC: Georgetown University Press. (in English)
**12.** Casey-Maslen, S. (Ed.). (2014). *The war report: Armed conflict in 2013*. Oxford: Oxford University Press. (in English)
**13.** Schmitt, M. N., & Watts, S. A. (2015). The decline of international humanitarian law opinio juris and the law of cyber warfare. *Texas International Law Journal, 50*(2), 189–222. (in English)
**14.** United Nations Security Council. (2006–2023). *Resolutions on Middle East security and non-state actors*. https://www.un.org/securitycouncil/ (in English)
**15.** Mustafayev, A. (2025). A view from the prism of international law: An interview with lawyer Yunis Khalilov. *Nakhchivan State University*. https://crossmedia.az/az/article/34351 (in Azerbaijani)
**16.** Parsi, T. (2017). *Losing an enemy: Obama, Iran, and the triumph of diplomacy*. New Haven: Yale University Press. (in English)
**17.** Aliyev, A. (2022). Iran's nuclear program and the international security environment: A geopolitical assessment in the context of the JCPOA. *Caucasus Journal of International Relations and Diplomacy, 4*(2), 35–47. (in Azerbaijani)
**18.** Aliyev, R. (2023). *Diplomatic resolution of conflicts in the Middle East and the role of international organizations*. Baku: Azerbaijan State University of Economics Publishing. (in Azerbaijani)
**19.** The Times of Israel. (2025, July 14). *The Israel-Iran war: By the numbers after 12 days of fighting.* https://www.timesofisrael.com/the-israel-iran-war-by-the-numbers-after-12-days-of-fighting/ (in English)
**20.** OSW Centre for Eastern Studies. (2025, June 25). *Iran: A high price for surviving the 12-day war.* https://www.osw.waw.pl/en/publikacje/analyses/2025-06-25/iran-a-high-price-surviving-12-day-war (in English)
**21.** BBC News. (2025, April 16). *How Israel countered Iran's missile attack: Iron Dome, David's Sling, Arrow.* https://www.bbc.com/news/world-middle-east-20385306 (in English)
**22.** Reuters. (2024, April 1). *Iran's Revolutionary Guards: Powerful group with wide regional reach.* https://www.reuters.com/world/middle-east/irans-revolutionary-guards-powerful-group-with-wide-regional-reach-2024-04-01/ (in English)
**23.** United Nations Human Rights. (2025, June 19). *UN warns of mounting humanitarian toll as Israel–Iran hostilities continue.* United Nations Office at Geneva. https://www.ungeneva.org (in English)
**24.** International Committee of the Red Cross. (2025, June 13). *Middle East: ICRC calls for de-escalation and protection of civilians amid rising tensions.* https://www.icrc.org/en/news-release/middle-east-icrc-calls-de-escalation-protection-civilians-rising-tensions (in English)
**25.** International Committee of the Red Cross. (2025, July 14). *ICRC accompanies Iranian Red Crescent Society to locations affected by hostilities.*

https://www.icrc.org/en/article/icrc-accompanies-iranian-red-crescent-society-locations-affected-hostilities (in English)

**26.** DW. (2025, June 13). *Oil prices soar as Iran–Israel tensions shake global economy.* https://www.dw.com/en/iran-israel-tensions-whats-at-stake-for-global-economy/a-72892747 (in English)

**27.** Wall Street Journal. (2025, June 20). *Israel's fight with Iran spreads to the energy sector.* https://www.wsj.com/business/energy-oil/israels-fight-with-iran-spreads-to-the-energy-sector-6ddb8761 (in English)

**28.** Byman, D. (2020, January 6). *Israel's strategy on Iran's nuclear program.* Brookings Institution. https://www.brookings.edu/articles/israels-strategy-on-irans-nuclear-program/ (in English)

**29.** Lynch, M. (2021, June 17). *The regional order after the Abraham Accords.* Carnegie Endowment for International Peace. https://carnegieendowment.org/2021/06/17/regional-order-after-abraham-accords-pub-84876 (in English)

**30.** Katzman, K. (2023). *Iran's foreign and defense policies.* Congressional Research Service. https://crsreports.congress.gov/product/pdf/R/R44017 (in English)

**31.** Mammadov, R. (2025, June 27). The perspective of the Iran–Israel confrontation and Azerbaijan's exemplary diplomacy. *Crossmedia*. https://crossmedia.az/az/article/35305 (in Azerbaijani)

**32.** U.S. Energy Information Administration. (2023). *World oil transit chokepoints.* https://www.eia.gov/international/analysis/special%20topics/World_Oil_Transit_Chokepoints (in English)

**33.** Ministry of Defense of the Republic of Azerbaijan. (n.d.). *International military cooperation.* https://mod.gov.az/az/beynelxalq-herbi-emekdasliq-025/ (in Azerbaijani)

**34.** Melikli, G. (2020, June 25). The security strategy of the Republic of Azerbaijan. *Geostrategiya*. https://geostrategiya.az/news.php?id=87 (in Azerbaijani)

**35.** Nuriyev, A. (2025, March 27). How do security agencies in Azerbaijan respond to modern challenges? *Qlobal.az*. https://www.qlobal.az/az/azerbaycanda-tehlukesizlik-orqanlari-muasir-cairislara-nece-cavab-verir-elimemmed-nuriyevin-meqalesi/ (in Azerbaijani)

**36.** The impact of the Israel–Iran war on global processes and Azerbaijan. (2025, July 11). *Kriminal.az*. https://www.kriminal.az/az/article/92829 (in Azerbaijani)

**37.** Unified tourism information database. (n.d.). *Azerbaijan Tourism Board*. https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi (in Azerbaijani)

## ƏDƏBİYYAT

**1.** Parsi, T. (2007). *Treacherous alliance: The secret dealings of Israel, Iran, and the United States*. New Haven: Yale University Press.

**2.** Ram, H. (2009). *Iranophobia: The logic of an Israeli obsession*. Stanford, CA: Stanford University Press.

**3.** Chehabi, H. E., & Martin, R. W. (2010). Iranian-Israeli relations in the Pahlavi era: Strategic alliance and its discontents. *The Middle East Journal, 64*(4), 521–543.

**4.** Takeyh, R. (2009). *Guardians of the revolution: Iran and the world in the age of the Ayatollahs*. Oxford: Oxford University Press.

**5.** Eisenstadt, M., & Pollack, K. (2017). *Iranian power projection strategy and responses*. Washington, DC: The Washington Institute for Near East Policy.

**6.** Litvak, M. (2006). The Islamic Republic of Iran and the Holocaust: Anti-Semitism and anti-Zionism. *Journal of Israeli History, 25*(1), 245–262.

**7.** Sanger, D. E. (2012). *Confront and conceal: Obama's secret wars and surprising use of American power*. New York.

**8.** Bergman, R. (2018). *Rise and kill first: The secret history of Israel's targeted assassinations*. New York: Random House.

**9.** Eisenstadt, M. (2017). *Iran's nuclear program and Israel's options: A net assessment*. Washington, DC: The Washington Institute for Near East Policy.

**10.** Rubin, U. (2018). *The missile threat from Gaza, Lebanon, and Iran: Strategic implications for Israel*. Ramat Gan: Begin-Sadat Center for Strategic Studies.

**11.** Levitt, M. (2013). *Hezbollah: The global footprint of Lebanon's party of God*. Washington, DC: Georgetown University Press.

**12.** Casey-Maslen, S. (Ed.). (2014). *The war report: Armed conflict in 2013*. Oxford: Oxford University Press.

**13.** Schmitt, M. N., & Watts, S. A. (2015). The decline of international humanitarian law opinio juris and the law of cyber warfare. *Texas International Law Journal, 50*(2), 189–222.

**14.** United Nations Security Council. (2006–2023). *Resolutions on Middle East security and non-state actors*. https://www.un.org/securitycouncil/

**15.** Mustafayev, A. (2025). Beynəlxalq hüquq prizmasından baxış: hüquqşünas Yunis Xəlilovla müsahibə. *Naxçıvan Dövlət Universiteti*. https://crossmedia.az/az/article/34351

**16.** Parsi, T. (2017). *Losing an enemy: Obama, Iran, and the triumph of diplomacy*. New Haven: Yale University Press.

**17.** Əliyev, A. (2022). İranın nüvə proqramı və beynəlxalq təhlükəsizlik mühiti: JCPOA kontekstində geosiyasi qiymətləndirmə. *Qafqaz Beynəlxalq Münasibətlər və Diplomatiya Jurnalı, 4*(2), 35–47.

**18.** Əliyev, R. (2023). *Yaxın Şərqdə münaqişələrin diplomatik həlli və beynəlxalq təşkilatların rolu.* Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatı.

**19.** The Times of Israel. (2025, July 14). *The Israel-Iran war: By the numbers after 12 days of fighting*. https://www.timesofisrael.com/the-israel-iran-war-by-the-numbers-after-12-days-of-fighting/

**20.** OSW Centre for Eastern Studies. (2025, June 25). *Iran: A high price for surviving the 12-day war*. https://www.osw.waw.pl/en/publikacje/analyses/2025-06-25/iran-a-high-price-surviving-12-day-war

**21.** BBC News. (2025, April 16). *How Israel countered Iran's missile attack: Iron Dome, David's Sling, Arrow*. https://www.bbc.com/news/world-middle-east-20385306

**22.** Reuters. (2024, April 1). *Iran's Revolutionary Guards: Powerful group with wide regional reach*. https://www.reuters.com/world/middle-east/irans-revolutionary-guards-powerful-group-with-wide-regional-reach-2024-04-01/

**23.** United Nations Human Rights. (2025, June 19). *UN warns of mounting humanitarian toll as Israel Iran hostilities continue*. United Nations Office at Geneva. https://www.ungeneva.org

**24.** International Committee of the Red Cross. (2025, June 13). *Middle East: ICRC calls for de-escalation and protection of civilians amid rising tensions*. https://www.icrc.org/en/news-release/middle-east-icrc-calls-de-escalation-protection-civilians-rising-tensions

**25.** International Committee of the Red Cross. (2025, July 14). *ICRC accompanies Iranian Red Crescent Society to locations affected by hostilities*. https://www.icrc.org/en/article/icrc-accompanies-iranian-red-crescent-society-locations-affected-hostilities

**26.** DW. (2025, June 13). *Oil prices soar as Iran-Israel tensions shake global economy*. https://www.dw.com/en/iran-israel-tensions-whats-at-stake-for-global-economy/a-72892747
**27.** Wall Street Journal. (2025, June 20). *Israel's fight with Iran spreads to the energy sector*. https://www.wsj.com/business/energy-oil/israels-fight-with-iran-spreads-to-the-energy-sector-6ddb8761
**28.** Byman, D. (2020, January 6). *Israel's strategy on Iran's nuclear program*. Brookings Institution. https://www.brookings.edu/articles/israels-strategy-on-irans-nuclear-program/
**29.** Lynch, M. (2021, June 17). *The regional order after the Abraham Accords*. Carnegie Endowment for International Peace. https://carnegieendowment.org/2021/06/17/regional-order-after-abraham-accords-pub-84876
**30.** Katzman, K. (2023). *Iran's foreign and defense policies*. Congressional Research Service. https://crsreports.congress.gov/product/pdf/R/R44017
**31.** Məmmədov, R. (2025, 27 iyun). İran–İsrail qarşıdurmasının perspektivi və Azərbaycanın nümunəvi diplomatiyası. *Crossmedia*. https://crossmedia.az/az/article/35305
**32.** U.S. Energy Information Administration. (2023). *World oil transit chokepoints*. https://www.eia.gov/international/analysis/special%20topics/World_Oil_Transit_Chokepoints
**33.** Müdafiə Nazirliyi. (n.d.). *Beynəlxalq Hərbi Əməkdaşlıq*. https://mod.gov.az/az/beynelxalq-herbi-emekdasliq-025/
**34.** Məlikli, G. (2020, 25 iyun). Azərbaycan Respublikasının Təhlükəsizlik strategiyası. *Geostrategiya*. https://geostrategiya.az/news.php?id=87
**35.** Nuriyev, Ə. (2025, 27 mart). Azərbaycanda təhlükəsizlik orqanları müasir çağırışlara necə cavab verir? *Qlobal.az*. https://www.qlobal.az/az/azerbaycanda-tehlukesizlik-orqanlari-muasir-cairislara-nece-cavab-verir-elimemmed-nuriyevin-meqalesi/
**36.** İsrail-İran müharibəsinin qlobal proseslərə və Azərbaycana təsirləri. (2025, 11 iyul). *Kriminal.az*. https://www.kriminal.az/az/article/92829
**37.** Turizm üzrə vahid məlumat bazası. (n.d.). *Azərbaycan Turizm Şurası*. https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi